# Hələ sağlığında canlı əfsanəyə çevrilən dövlət xadimi



***Tarixin yaddaşında iz qoymaq hər insana nəsib olmur. Zəkası, ağlı və hünəri ilə tarixin gedişini dəyişmək də hər adamın işi deyil. Uca Tanrı yalnız özünün seçdiyi şəxslərə belə bir tale, qismət yazır. Ulu Öndərimiz Heydər Əliyevin timsalında Azərbaycan xalqı da bəşəriyyətin ən yeni tarixinə öz imzasını yazan dahi bir övlad yetişdirmişdir.***

Onun dühasının işığı ilə biz çətin, mürəkkəb, keşməkeşli yollardan keçərək, öz müstəqil dövləti və bu dövlətin əbədiliyini qorumaq əzmi olan bir millət kimi yetkinləşmiş, möhkəm birliyə və həmrəyliyə qovuşmuşuq. Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi Ulu Öndərimizin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti ilə sıx bağlı olmuşdur. Həmin dövrdə xalqımızın əldə etdiyi bütün nailiyyətlərdə, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı bütün uğurlarda Onun imzası vardır. Xoş gələcəyi naminə fədakarlıqla çalışdığı, zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi doğma millətinin önündə həmişə cəsarətlə addımlayan Ulu Öndər Heydər Əliyev müasir dövlətimizin banisi, istiqlalımızın böyük öndəridir.

Hələ sağlığında canlı əfsanəyə çevrilən və adı Azərbaycanın rəmzi kimi səslənən nəhəng siyasətçi və dövlət xadimi Heydər Əliyev dünyanın nadir şəxsiyyətləri sırasında özünə əbədi yer tutur. O, müasir bəşər tarixində iki müxtəlif ictimai-siyasi quruluşda hakimiyyət zirvəsinə qalxmağa nail olmuş və əsl fatehlik keyfiyyətləri göstərməyi bacarmış, ömrünün sonuna kimi siyasi mübarizədə yenilməz zəfər sərkərdəsi kimi tanınmışdır.

Azərbaycanın iqtisadi və mədəni tənəzzül dövrü yaşadığı 1969-cu ildə respublika rəhbərliyinə gələn Ulu Öndər Heydər Əliyev dərhal öz təşəbbüskarlığı və işgüzarlığı ilə respublika həyatının bütün sahələrində dirçəlişə nail oldu ki, bu da milli şüurun oyanışı, milli ruhun yüksəlişi və mənəvi tərəqqisi üçün güclü təkan idi. Onun uzaqgörən, müdrik siyasəti xalqımızı keçmiş İttifaqın ən inkişaf etmiş xalqları sırasına çıxardı.

Azərbaycanın başı üzərini məhv olmaq təhlükəsi alanda ikinci dəfə yenidən böyük siyasətə qayıdan Ümummilli Lider Heydər Əliyev özünün fenomenal istedadını, zəngin dövlətçilik təcrübəsini Tanrının və tarixin xalqımıza bəxş etdiyi kövrək istiqlalımızın qorunmasına və möhkəmlənməsinə yönəltdi. Gənc dövlətimizi vətəndaş müharibəsi təhlükəsindən, siyasi çaxnaşmalardan xilas edərək, öz güclü şəxsiyyəti ilə doğma xalqını yenidən vahid bir məfkurə ətrafında birləşdirdi. Müstəqilliyini yeni bərpa etmiş, amma səriştəsiz, naşı rəhbərlərin bacarıqsızlığı və milli mənafelərimizə zidd mövqe tutması nəticəsində suverenliyi itirmək, parçalanıb məhv olmaq təhlükəsinə məruz qalmış Azərbaycanı xilas etmək missiyası, məhz bu dahi şəxsiyyətin, təcrübəli siyasətçinin üzərinə düşdü. Dahi Öndər Heydər Əliyevin respublikamızda siyasi hakimiyyətə qayıdışı millətimizin və dövlətimizin qurtuluşu idi. Bu qayıdışın bizə hansı uğuru gətirdiyi, müstəqil dövlətimizi hansı səviyyəyə çatdırdığı göz önündədir: bu gün sabitliyə, rifaha, yüksəlişə qovuşmuş Azərbaycan öz iqtisadi inkişaf tempinə görə, hətta dünya miqyasında ön mövqeyə çıxıb.

Bu gün qədirbilən xalqımız Ulu Öndərin siyasi varisi, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətinə və iqtisadiyyatına dərindən bələd olan, respublikamıza rəhbərlik etdiyi illər ərzində regionumuzun nüfuzlu lideri kimi tanınan Möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşib.

*Təmraz Tağıyev,*
*YAP Nərimanov rayon təşkilatının sədri*